**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**TAMİLLA ELXAN QIZI HACIYEVA**

# AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİNİN HƏYATA KEÇİRİLMƏSİNDƏ MİLLİ MƏCLİSİN FƏALİYYƏTİ
(1993-2008)

İxtisas: 5503.02 – "Vətən tarixi"

Tarix üzrə fəlsəfə doktoru
alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

# A V T O R E F E R A T I

Bakı – 2014

*Dissertasiya Bakı Dövlət Universiteti Tarix fakültəsinin Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasında yerinə yetirilmişdir*

**Elmi rəhbər**:

tarix elmləri doktoru, professor **F.F.İbrahimli**

**Rəsmi opponentlər:**

tarix elmləri doktoru, professor **İ.M.Məmmədov**

tarix elmləri üzrə fəlsəfə doktoru **E.Ə.Məhərrəmov**

**Aparıcı təşkilat** – Azərbaycan MEA Milli Azərbaycan Tarixi Muzeyi

Müdafiə «27___»_09____2014-cü il saat «___»-da Bakı Dövlət Universitetinin Tarix fakültəsi nəzdində tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.02.161 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan**: Az-1148, Bakı şəhəri, Z.Xəlilov küçəsi, 23

Dissertasiya ilə Bakı Dövlət Universitetinin Elmi kitabxanasında tanış olmaq olar

Avtoreferat "____"______________2014-cü ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi
tarix üzrə elmlər doktoru, professor **S.Y.Süleymanova**

# I. DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** XX əsrin sonu- XXI əsrin əvvəlində böyük dünya sisteminin transformasiyası diqqəti cəlb edir. Bu da öz növbəsində insanların yaşayış sferasına, ictimai-siyasi və ictimai-iqtisadi quruluşuna təsir göstərir. Cəmiyyətin iqtisadi və ictimai strukturunun fundamental dəyişiklikləri, elmi-texniki tərəqqi, informasiya məkanının yaranması və yeni xarici siyasət normalarının təşəkkülü yeni beynəlxalq əlaqələr tipinin yaranmasına səbəb olur. Bu prosesin kökləri, aparıcı qüvvələri, əvvəli və sonu qaranlıqdır və ona görə də dərin tədqiq tələb edir. İnkişafın strateji yönü tez-tez dəyişən dünyanın xarici siyasət sahəsində elmi əsaslandırılmış və dərk edilmiş xarakterə malikdir. XX əsrin axırı– XXI əsrin əvvəllərinin beynəlxalq əlaqələri sürətli proseslərlə xarakterizə edilir və bu xarici siyasət sahəsindəki ənənəvi fikrin ahəngini, beynəlxalq hüququn subyektləri arasındakı əlaqələrin mahiyyətini modifikasiya edir.

Siyasi müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası özünün xarici siyasət sahəsində bir sıra mürəkkəb problemlərlə və təxirəsalınmaz vəzifələrlə üzləşdi. Uzun müddət ərzində Rusiya və Sovet imperiyalarının əsarəti altında qalmış ölkəmiz üçün xarici siyasətin başlıca istiqamətlərini düzgün müəyyən etmək çox vacib idi. Ermənistanın təcavüzünə məruz qalmış Azərbaycan Respublikasının müharibə şəraitində olması da xarici siyasətdə əlavə, xüsusi çətinliklər yaradırdı. Azərbaycan Respublikası ərazisinin 20%-dən çoxu erməni işğalına məruz qaldığı halda ölkəmiz beynəlxalq aləmdə hələ də “işğalçı” kimi tanınırdı. Bu hal isə sülhsevər və demokratik siyasət yeridən Azərbaycan dövlətinin beynəlxalq münasibətlər, əlaqələr sisteminə inteqrasiyasına ciddi əngəllər yaradırdı.

Azərbaycan Respublikasının işğala məruz qaldığı faktının dünya ictimaiyyətinə, dövlətlərinə anladılması, Dağlıq Qarabağ münaqişəsinə beynəlxalq aləmdə hüquqi qiymət verilməsinə nail olunması, Azərbaycan xalqının demokratik ənənələrə və dəyərlərə malik olduğunun dünya ictimaiyyətinə sübut edilməsi, beynəlxalq aləmdə baş verən siyasi proseslərin ölkəmizin xeyrinə dəyişdirilməsi Respublika rəhbərliyinin xarici siyasətinin əsas istiqamətinə, başlıca məqsədinə çevrildi.

Ümummilli liderimiz Heydər Əliyev 1993-cü il oktyabrın 10-da Azərbaycan Respublikasının prezidenti seçilməsi münasibəti ilə keçirilmiş rəsmi andiçmə mərasimindəki çıxışında demişdir: “Respublikamızın qarşısında duran əsas vəzifələrdən biri Azərbaycanın mənafeyini dünya miqyasında müdafiə edə bilən ağıllı, səriştəli siyasətin yeridilməsidir. Qarşıda böyük vəzifələr durur. Bizim xarici siyasətimiz birinci növbədə Azərbaycanın dövlət müstəqilliyini təmin etməyə yönəldilməlidir. Vəzifə dünyanın bütün

dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı, faydalı əlaqələr yaratmaq və inkişaf etdirməkdən, bu əlaqələrdən həm Azərbaycan Respublikasının beynəlxalq mövqelərini möhkəmləndirmək, həm də respublikanın iqtisadiyyatını, elmini, mədəniyyətini inkişaf etdirməkdən ibarətdir".[1]

Vətəndaşların qloballaşmasının və gündəlik həyatının arasındakı fərqi anlaması və dərki üçün parlamentin fəaliyyəti böyük əhəmiyyət kəsb edir. Parlamentin vəzifəsi xalqın milli və beynəlxalq maraqlarını təmsil etməkdir. Xalq suverendir və parlament vasitəsi ilə başqa xalqlarla ünsiyyət qurmaq imkanı var.

Buradan bir nəticə çıxarmaq olar – parlamentin beynəlxalq fəaliyyətini beynəlxalq əlaqələrdə xalqın təmsilçiliyi kimi qəbul etmək olar.

Deyilənlərlə əlaqədar 2001-ci ildə Fransanın parlament sədri vəzifəsində çalışmış Raymond Farşenin sözləri yada düşür "Mən əminəm ki, beynəlxalq səviyyədə qəbul olunan qərarlar zamanı parlamentin rolu və təsiri azalmamalıdır, çünki xalqın öz seçdiyi nümayəndələri vasitəsilə hökumətin fəaliyyətinə nəzarət etməyə ixtiyarı var".[2] Parlament üzvlərinin fikrinin nəzərə alınmadan beynəlxalq əməkdaşlıq və beynəlxalq səviyyədə qəbul olunan qərarlar sonunda milli və dövlət maraqlarına zərər verə bilər. Vacib beynəlxalq qərarlar demokratik prosedurlara riayət edilmədən qəbul olunmamalıdır.

Parlamentin xarici siyasətində iştirakını araşdıran zaman Amerika tədqiqatçısı L.Martin yazmışdır: "Parlamentin beynəlxalq işlərə qarışması diktatorlar üçün maneçilik törədir, çünki onlar bütün qərarları məsləhətsiz qəbul edirlər".[3] Bundan bir nəticə çıxarmaq olar ki, xarici siyasət sahəsində parlamentin rolunun artması bu prosesin demokratikləşməsinə gətirir. Qanunverici orqanlar beynəlxalq qərarların qəbulunun sonuncu mərhələsində iştirak etməklə kifayətlənə bilməzlər. Onlar müzakirə edilən məsələlərin mahiyyətini anlamaq üçün bu prosesin daha erkən mərhələsində iştirak etməlidirlər və axırda bir nəticə çıxarmalıdırlar. Vasitəsiz əlaqə və qarşılıqlı təsir nümayəndəli orqanların xarici siyasət sahəsində rolunu təyin edən faktorlardır. Xarici və daxili siyasətin qarşılıqlı təsiri xarici siyasət sahəsindəki məsələlərin müzakirəsində parlamentin iştirakını stimullaşdırır. Xarici siyasət sahəsindəki işlərin miqyasının artırılması parlamentin səmərəli işləməsinə böyük təsir göstərir.

---

[1] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 1-ci cild. iyun, 1993 - may, 1994. B., 1997, s. 17.

[2] Həsənov Ə. Müasir Beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. B., 2005, s. 137.

[3] Бжезинский З. Большая шахматная доска. М., 1999, s. 34.

Xarici siyasət sahəsindəki problemlərin mürəkkəbləşməsi qanunverici orqanların nəzarətindən keçməli xarici siyasət məsələlərinin sayını artırır. Hal-hazırda beynəlxalq ictimai fikir xeyli inkişaf etmiş təşkilatlanma ilə səciyyəvidir. Bu fikir beynəlxalq sferada qəbul olunan vacib qərarlara böyük təsir göstərir. Parlamentdə öz növbəsində beynəlxalq ictimai fikrin formalaşmasına bilavasitə təsir göstərir. Onlar dövlətin xarici siyasətdə məqsədlərini yerinə yetirmək üçün siyasi, qanunverici və maliyyə resurslarından istifadə edirlər.

Parlamentin konfliktlərin həlli prosesində bilavasitə iştirakı və parlament diplomatiyası dövlətin klassik diplomatiyasını tamamlaya bilər.[1] Parlament üzvlərinin diplomatlardan və dövlət məmurlarından fərqli olaraq açıq bəyanatlar verməyə, ictimai müzakirələr keçirməyə ixtiyarı var. Bu metodlar ictimaiyyətin, dövlətin planlaşdırılmış təşəbbüslərinə olan münasibətini aşkara çıxarmağa imkan yaradır.

Azərbaycan Respublikası Milli Məclisi uğurlu xarici siyasət yeridilməsində ölkə rəhbərliyinin əsas dəstəkçisidir. Respublikada ali qanunverici orqan olan Milli Məclis istər dövlətlərarası münasibətlər sahəsində, istərsə də beynəlxalq qurumlarla əlaqələrin qurulması, inkişaf etdirilməsi istiqamətində uğurlu fəaliyyət göstərir.

Ümummilli lider Heydər Əliyev Milli Məclisin xarici siyasətini qiymətləndirən zaman bunları söyləmişdir: "Milli Məclis parlamentlərarası əlaqələrin vasitəsilə Azərbaycanın xarici siyasətini təşkil etməklə, bizim iş birliyimizə öz töhfəsini vermişdir".[2] Parlament üzvləri dövlət və xarici siyasət orqanlarının işini asanlaşdırmaq üçün qarşı tərəfin fikrini və mövqeyini aydınlaşdırır. Deputatlar peşəkar diplomatların müqavilələri imzalaması üçün əlverişli mühit yaratmalıdırlar. Deyilənlərlə əlaqədar onu qeyd etmək olar ki, parlament üzvlərinin beynəlxalq işlərə qarışması vacibdir. Bu zərurət daha çox ona görə aşkara çıxıb ki, indiki zamanda dövlət problemləri tək həll edə bilməz. Parlamentin beynəlxalq əməkdaşlığının ölçülməsi üçün daha çox aktuallığı olan mexanizm kompleksinin tədqiqindən istifadə olunur. Bu mexanizm vasitəsi ilə Parlament dövlətin xarici siyasətinə təsir göstərə bilər. Bu cür tədqiqatlar gənc Azərbaycan Respublikası üçün maraq yarada bilər. 18 oktyabr 1991-ci ildə Azərbaycanın müstəqilliyinin əldə olunmasından sonra Parlamentin xarici siyasət sahəsindəki əlaqələri daha çox inkişaf edib. Avropanın, Amerikanın, Asiyanın, Afrikanın və postsovet məkanının respublikalarının nümayəndə heyətləri Azərbaycan respublika-

[1] Бжезинский З. Выбор. Мировое господство, или глобальное лидерство. М., 2004, s. 78.
[2] Heydər Əliyev və Azərbaycan Parlamenti. Bakı, 2003, s. 191.

sının qanunverici orqanları ilə əlaqə yaratdılar. Azərbaycan parlamentinin üzvləri də öz növbəsində bir çox ölkələrə səfər etdilər. Parlamentlərarası əməkdaşlıq haqqında bir çox müqavilələr imzalanmışdır və parlamentlərarası əlaqələrin irəliləməsi üçün işçi qrupları təsis olunmuşdur.

1992-1993-cü ildə baş verən ictimai-siyasi hadisələr, o cümlədən Dağlıq Qarabağ problemi parlamentin fəaliyyətinə neqativ təsir göstərdi. Qanunverici orqanın normal fəaliyyəti pozuldu.[1] Təbii ki bu vəziyyətdə xarici siyasət sahəsindəki uğurlar haqqında danışmaq qeyri mümkün idi. Heydər Əliyevin hakimiyyətə qayıdışından və ictimai-siyasətin stabilliyinin yaradılmasından sonra parlamentin xarici siyasət sahəsindəki əlaqələri inkişaf etməyə başladı. Milli Məclis bir çox beynəlxalq parlament təşkilatlarına üzv oldu, dünya dövlətlərinin parlamentləri ilə əlaqələr yaratdı.

Azərbaycan Respublikası Milli Məclisi bir çox beynəlxalq qurumların və təşkilatların parlamentlərində təmsil olunaraq xalqımızın, dövlətimizin maraqlarını qoruyur. Bundan başqa 60-dan çox dünya dövlətləri ilə parlamentlərarası işçi qrupları fəaliyyət göstərir.

Parlamentlərarası əlaqələrin dərinləşməsi, Azərbaycan Parlamentinin tam potensialının aşkara çıxarılması, dövlətin xarici siyasətinə köməyi üçün Milli Məclisin xarici siyasətinin formalaşması prosesinə cəlb olunması mexanizminin kompleksi tədqiq olunmalıdır.

Son 20 il ərzində müstəqillik tarixinin yeni mərhələsində olan Azərbaycan dövləti üçün bu mövzunun araşdırılması Respublika Milli Məclisinin xarici əlaqələrinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi, öyrənilməsi baxımından aktualdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti Azərbaycan Respublikası Milli Məclisi, predmeti isə parlamentin beynəlxalq qurumlarda və təşkilatlarda apardığı siyasətdir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Tədqiqat işi 1993-2010-cu illəri əhatə edir. Bu xronoloji çərçivədə əsas diqqət Dağlıq Qarabağın və onunla qonşu olan digər Azərbaycan bölgələrinin ermənilər tərəfindən işğalı faktının dünya ictimaiyyətinə çatdırılması, Respublikanın ərazi bütövlüyünün beynəlxalq təşkilatlar tərəfindən tanınması istiqamətindəki AR Milli Məclisinin fəaliyyətinə yönəlmişdir.

**Mövzunun tədqiq səviyyəsi.** Mövzu əsasən arxiv materialları əsasında araşdırılmışdır. Başlıca diqqət AR Milli Məclisinin cari arxivinə yönəldilmişdir. Tədqiqat mövzusu yaxın keçmişi əhatə edir və buna görə də araşdırılan arxiv materialları hələlik sistem şəklinə salınmamışdır. Məhz bu səbəbdən tədqiqat prosesində bir sıra çətinliklər üzə çıxmışdır. Tədqiqat

[1] Heydər Əliyev və Azərbaycan Parlamenti, s. 47.

zamanı əsasən AR Milli Məclisinin Beynəlxalq münasibətlər şöbəsinin materiallarından istifadə edilmişdir. Bu arxivlə yanaşı müəllif həmin şöbədə saxlanılan sənədlərdən də istifadə etmişdir. Araşdırma prosesində Azərbaycan Respublikasında, xarici ölkələrdə çapdan çıxmış elmi ədəbiyyatdan da geniş istifadə olunmuşdur.

Xarici ölkələrdə nəşr edilmiş əsərlərdə əsasən beynəlxalq qurumların və təşkilatların fəaliyyətinin müxtəlif cəhətlərinə diqqət yetirilmişdir. Həmin əsərlərdə Azərbaycan Respublikası parlamentinin xarici əlaqələrinin araşdırılması üçün mühüm olan faktlara təsadüf edilir. Respublika hüdudlarından kənarda nəşr olunmuş məruzə və bəyannamələr müəyyən bir quruma və ya təşkilata aiddir, buna görə də həmin sənədlər Azərbaycan Respublikası Milli Məclisinin 1993-2010-cu illərdəki fəaliyyətinin öyrənilməsinə yardım etmir. Bu materiallar yalnız həmin beynəlxalq qurumların məqsəd və vəzifələrini əks etdirir. Bununla yanaşı, həmin sənədlər bu beynəlxalq təşkilatlara üzv olarkən Azərbaycan Respublikası rəhbərliyinin cari və perspektiv məqsədlərinin müəyyən edilməsinə yardım edir. Bu sənədlərə misal olaraq müxtəlif beynəlxalq qurumların məruzələrini, sessiyaların sonlarında qəbul olunmuş qətnamə və təklifləri göstərmək olar.

Dissertasiya işi yazılarkən Rusiya Federasiyasında nəşr olunmuş bəzi kitablardan istifadə edilmişdir. X.A.Şreplerin rus dilinə tərcümə edilmiş "Beynəlxalq təşkilatlar" adlı məlumat kitabçasında[1] beynəlxalq təşkilatlar haqqında zəruri məlumatlar öz əksini tapmışdır. Bu kitablarda həmin təşkilatların yaradılması, quruluşu haqqında da məlumatlar mövcuddur. İ.S.Krılovanın "Avropa parlamenti: hüquqi statusu" kitabında[2] təşkilatın yaradılması, quruluşu, həyata keçirdiyi siyasət və genişlənmə istiqamətləri araşdırılır.

Araşdırma prosesində Azərbaycan Respublikasında nəşr edilmiş bir çox əsərlərdən istifadə olunmuşdur. Tədqiqat gedişində AR Milli Məclisinin nəşri olan "Azərbaycan parlamenti və beynəlxalq təşkilatlar" kitabından[3] istifadə edilmişdir. Bu kitabda ölkə parlamentinin beynəlxalq təşkilatlarla əlaqələri qurumlar üzrə öyrənilmişdir. Həmin kitabın önəmli, üstün cəhətlərindən biri onun beynəlxalq təşkilatlarda Azərbaycanı bilavasitə təmsil etmiş parlament üzvləri tərəfindən yazılmasıdır. Kitabda Azərbaycan Respublikası parlament nümayəndə heyətinin 2004-cüilədək qurumlardakı fəaliyyəti, görüşləri geniş işıqlandırılır.

---

[1] Шреплер Х.А. Международные организации. Справочник. Пер. с. нем. С.А.Тюпаева. М., 1995, 320 с.
[2] Крылова И.С. Европейский парламент: Правовой статус. М., 1987, 189с.
[3] Ələsgərov M. Azərbaycan Parlamenti və Beynəlxalq Təşkilatlar. B., 2004, 421 s.

2005-ci ildə nəşr olunmuş “Müasir Beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti” kitabında[1] Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri, o cümlədən beynəlxalq təşkilatlardakı fəaliyyəti geniş şəkildə araşdırılmışdır. Lakin həmin əsərdə, ayrılıqda Azərbaycan Respublikası parlamentinin xarici siyasət sahəsindəki fəaliyyəti ayrıca tədqiqat obyekti deyildir.

Ümummilli liderimiz H.Əliyevin xarici ölkələrə səfərləri zamanı etdiyi çıxışlar Azərbaycan Respublikasının xarici siyasətinin öyrənilməsinə əvəzsiz töhfədir. Bu baxımdan H.Əliyevin çıxışlarını özündə əks etdirən, hazırda 46 kitabdan ibarət olan “Müstəqilliyimiz əbədidir” adlı nəşrlər[2] mühüm əhəmiyyət kəsb edir. Həmin mənbələrdə Azərbaycan Respublikasının bir çox beynəlxalq qurumlarla və təşkilatlarla əlaqələrinin başlıca istiqamətləri aydın şəkildə təqdim edilir.

H.Rəcəblinin və V.İbayevin əsərində[3] Avropa Şurasının yaranma tarixi, onun məqsəd və vəzifələri, orqanları və fəaliyyət istiqamətləri haqqında məlumatlar vardır. Avropa Şurası ilə Azərbaycan arasında əlaqələr bu əsərin ayrıca fəslində işıqlandırılır. Lakin həmin kitabda AR Milli Məclisinin bu qurumdakı fəaliyyəti haqqında məlumat yoxdur.

Azərbaycan Respublikası Milli Məclisinin aparatının rəhbəri S.Mirzəyevin məqaləsində ölkə parlamentinin fəaliyyəti, o cümlədən onun beynəlxalq əlaqələri əks olunur.[4] Bu məqalədə AR Milli Məclisinin bir sıra beynəlxalq parlament təşkilatları ilə əlaqələri təhlil edilir.

Ə.Həsənovun “Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1995)” adlı monoqrafiyasında[5] göstərilən dövrdə Azərbaycan Respublikasının xarici siyasəti geniş işıqlandırılır, təhlil edilir. Ə.Həsənovun “Azərbaycan və ATƏT” adlı digər kitabında[6] Azərbaycan Respublikasının qeyd edilən qurumla əlaqələri nəzərdən keçirilir. Bu kitabda da AR Milli Məclisinin, ATƏT PM ilə əlaqələri xüsusi tədqiqat obyekti olmamışdır.

A.Əzimlinin “Azərbaycan-NATO münasibətləri” adlı kitabında[7] Azərbaycan Respublikasının bu qurumla əlaqələrinin yaranmasının ilkin mərhələsindən, müəyyən proqramlar çərçivəsində Azərbaycan-NATO əmək-

---

[1] Həsənov Ə. Müasir Beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. B., 2005. 752 s.
[2] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 1-46-cı cildlər. B., 1997-2013.
[3] Rəcəbli H., İbayev V. Avropa Şurası. B., 1999. 118 s.
[4] “Azərbaycan” qəzeti, №254 (19 noyabr) və №255 (20 noyabr), 1997.
[5] Həsənov Ə. Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1995) B., 1998, 315 s.
[6] Həsənov Ə. Azərbaycan və ATƏT. B., 1997, 80 s.
[7] Əzimli A. Azərbaycan-NATO münasibətləri. B., 2001. 225 s.

daşlığından, münasibətlərin inkişaf dinamikasından bəhs edilir. Həmin kitabda da qurumun Parlament Assambleyası ilə AR Milli Məclisinin əlaqələrindən konkret olaraq bəhs edilmir.

R.E.Tağıyevin "Azərbaycan-Avropa əlaqələri: Mövcud problemlər və əməkdaşlığın əsas istiqamətləri" adlı əsərində[1] Azərbaycan Respublikasının Avropa dövlətləri ilə əlaqələri tədqiq edilmişdir. Həmin kitabda Avropa Şurasında Azərbaycan Respublikasının rolunun və nüfuzunun artırılması uğrunda atılan addımlardan da bəhs edilir. "Sülh və təhlükəsizlik naminə: Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin NATO-nun 50 illik yubileyi ilə əlaqədar Amerika Birləşmiş Ştatlarına səfəri, 22-27 aprel 1999-cu il" adlı nəşrdə[2] NATO-nun strukturu, bu alyansın dünyada sülhün bərqərar olması naminə gördüyü işlər, qurum çərçivəsində Dağlıq Qarabağ probleminə yetirilən diqqət, Azərbaycan Respublikasının GUAM-ın yaradılması və inkişaf etdirilməsindəki rolu, bölgədə qarşılıqlı əməkdaşlığın başlıca istiqamətləri, Azərbaycan Respublikası ilə NATO arasında əməkdaşlığa dair imzalanmış sənədlər və s. məsələlər əks olunmuşdur. Burada Azərbaycan Respublikası ilə beynəlxalq qurumlar arasında əlaqələrdən bəhs edilir, lakin buna baxmayaraq, əsərdə Azərbaycan Respublikası Milli Məclisi ilə beynəlxalq təşkilatların parlamentləri arasında əlaqələr əhatə olunmamışdır.

C.Sümərinlinin "İrəliyə, NATO-ya doğru!" adlı kitabında[3] NATO-nun yaranma tarixi, onun strukturu, Azərbaycan Respublikası ilə əlaqələri, həmin əlaqələrin tarixi, gələcək inkişaf istiqamətləri, Respublikada həyata keçirilən hərbi islahatlar və s. haqqında məlumatlar vardır. Bu əsərdə də Azərbaycan Respublikası parlamentinin NATO ilə əlaqələri tədqiqatdan kənarda qalmışdır.

Azərbaycan Respublikasının NATO ilə əlaqələrinin 15 illiyinə həsr olunmuş, AR-nın NATO yanında nümayəndəliyinin hazırladığı "Azərbaycan-NATO 15 illik tərəfdaşlıq" adlı kitabında[4] bu qurumla Azərbaycan Respublikası arasında siyasi dialoq və təcrübi əməkdaşlığın əsas istiqamətləri işıqlandırılır. NATO ilə Azərbaycan Respublikası arasında bağlanmış bir neçə vacib sənəd də bu kitaba daxil edilmişdir. Həmin kitabda AR Milli Məclisinin bu qurumla əlaqələrinə diqqət yetirilməmişdir.

---

[1] Vulyam Y. NATO-nun Şərqə doğru genişlənməsi zərurətdir //Dirçəliş - XXI əsr, №12. 1999, s.16

[2] Sülh və təhlükəsizlik naminə: Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin NATO-nun 50 illik yubileyi ilə əlaqədar Amerika Birləşmiş Ştatlarına səfəri, 22-27 aprel 1999-cu il. B., Azərbaycan Respublikası Prezidentinin katibliyi, 2000. 231 s.

[3] Sümərinli C. İrəliyə, NATO-ya doğru! B., 2007. 138 s.

[4] Azərbaycan-NATO. 15 illik tərəfdaşlıq. B., Azərbaycanın NATO yanında nümayəndəliyi, 2009. 78 s.

Mövzu ilə bağlı diqqəti cəlb edən əsərlər sırasında Azərbaycan Respublikası Milli Məclisinin Sədri Oqtay Əsədovun "Azərbaycan Respublikasının Parlamenti" adlı müştərək kitabı da mühüm yer tutur.[1]

2011-ci ildə nəşr olunmuş "Azərbaycan vahid və bölünməz Avropada 2001-2011" adlı kitab[2] Azərbaycan Respublikasının Avropa Şurasına üzv qəbul edilməsinin 10 illiyinə həsr olunmuşdur. Ümummilli liderimiz Heydər Əliyevin, AR prezidenti İlham Əliyevin AŞ nümayəndələri ilə görüşlərinin mətni, onların bu təşkilatın tədbirlərindəki çıxışları bu kitaba daxil edilmişdir. AŞ-nın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan qətnamə və tövsiyələri də həmin kitabda öz əksini tapmışdır.

"Azərbaycan-NATO: tərəfdaşlıqdan başlanan yol (1994-2009)"adlı kitaba[3] görkəmli siyasi xadim Heydər Əliyevin və Azərbaycan Respublikası prezidenti İlham Əliyevin NATO-nun ali məclislərindəki çıxışları, onların təşkilat rəhbərləri ilə görüşlərinin mətnləri, tarixi arayışlar, BMT-nin Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan əraziləri ilə bağlı olan qətnamələri, ATƏT-in zirvə görüşlərinin (sammitlərinin) sənədləri, məlumat-soraq materialları, xəritələr və foto-sənədlər daxil edilmişdir.

**Tədqiqatın mənbə bazası.** Dissertasiya işi çoxsaylı qaynaqların araşdırılması əsasında yazılmışdır. Araşdırma arxiv materiallarının, Milli Məclis aparatının beynəlxalq əlaqələr şöbəsinin cari arxiv materiallarının, o cümlədən beynəlxalq və parlamentlərarası əlaqələrə dair Parlament Komitəsinin, Milli Məclisin stenoqramları və protokolları əsasında aparılıb.

Mövzu əsasən arxiv materialları əsasında araşdırılmışdır. AR Milli Məclisinin cari arxivindən geniş istifadə olunmuşdur. Bundan başqa AR Milli Məclisinin Beynəlxalq münasibətlər şöbəsində saxlanılan sənədlərə də geniş yer verilmişdir.

Dissertasiyada beynəlxalq parlament təşkilatlarının materiallarından qərar, tövsiyə və məruzələrindən də geniş istifadə edilmişdir. Bu sənədlər beynəlxalq təşkilatların səlahiyyətlərini, əlaqə formalarını öyrənmək baxımından çox əhəmiyyətlidir. ATƏT, Pİ, QDİƏT, AŞ, Aİ və s. nizamnamələrini buna misal göstərmək olar. Həmin materiallar beynəlxalq qurumların əsas vəzifələrinin müəyyənləşdirilməsində əvəzsiz rol oynayır. Beynəlxalq Parlament təşkilatlarının çap etdiyi dövri nəşrlərdə olan materiallar çox böyük maraq yaradır. Bunların sırasında aşağıdakıları xüsusi ilə qeyd etmək olar: "MDB Parlamentlərarası Assambleyanın xəbərləri", Parlament-

---

[1] Əsədov O.S., Cəbrayılov R.K. Azərbaycan Respublikasının Parlamenti. Bakı: Çaşıoğlu, 2008, 520 s.
[2] Azərbaycan vahid və bölünməz Avropada – 2001-2011. B., 2011, 440 s.
[3] Azərbaycan-NATO: tərəfdaşlıqdan başlanan yol (1994-2009). B., 2009, 344 s.

lərarası Assambleyanın rüblük nəşri olan “parlamentlər Dünyası” (The world of Parlaments). Parlamentlərarası təşkilatın illik məruzələri (Activities of the PU Animal Repart of the Secretary General) əsaslı şəkildə tədqiq edilib.

Azərbaycanın ikitərəfli parlament əlaqələrinin üzərində aparılan işin gedişatında Azərbaycan Respublikası Parlamentinin bəzi xarici ölkələrin qanunverici orqanları ilə bağlanan müqavilələrinin müddəaları tədqiq edilib.

Ümummilli liderimiz Heydər Əliyevin xarici ölkələrə səfərləri zamanı, beynəlxalq təşkilatlarda etdiyi çıxışlar Azərbaycan Respublikasının xarici siyasətinin istiqamətlərinin öyrənilməsində əvəzsiz mənbədir. Beynəlxalq parlament təşkilatları ilə AR Milli Məclisinin əməkdaşlıq sahələrinin öyrənilməsində də bu məruzə və nitqlər önəmli yer tutur.

Tədqiqat prosesində dövri mətbuatda çapdan çıxmış məqalələrdən, məlumat səciyyəli materiallardan da istifadə olunmuşdur.

Tədqiqat işində Azərbaycan Respublikasının Qanunvericilik aktları da öz əksini tapmışdır. Bunlar aşağıdakılardır: “Azərbaycan Respublikasının Milli Məclisinin deputatlarının statusu haqqında qanun” (17 may 1997-ci il), “Milli Məclisin daimi komissiyaları haqqında qanun” (10 may 1998-ci il), “Diplomatik qulluq haqqında qanun” (8 iyun 2000-ci il)

Azərbaycan Respublikasının Konstitusiyası (əsas qanunu) dövlətin beynəlxalq fəaliyyətini hüquqi baxımdan izah etmək, dəyərləndirmək üçün müstəsna rol oynayır və o, tədqiq olunan dövrün ən qiymətli ilkin qaynaqlarındandır.

**Tədqiqatın məqsəd və vəzifələri**. Araşdırmanın məqsədi mexanizmlərin kompleksli analizi və qanunverici orqanların potensialının aşkarlanmasıdır. Mexanizmlərin kompleksli analizi vasitəsilə Azərbaycan Parlamenti dövlətin maraqlarının formalaşmasına və reallaşmasına təsir göstərir. İcra hakimiyyətinin xarici siyasət sferasındakı işinin tamamlanması üçün qanunverici orqanın potensialının aşkarlanması vacibdir. Bu məqsədlə Azərbaycan Respublikası parlamentinin xarici siyasətdəki fəaliyyətini araşdırmaq, xüsusilə onun beynəlxalq qurumlarda və təşkilatlarda bu istiqamətdəki gördüyü işləri tədqiq əsas məqsəd kimi qarşıda durur.

Müəllif həmin məqsədinə çatmaq üçün qarşısına aşağıdakı vəzifələri qoymuşdur:

- Azərbaycan Respublikasının konstitusiyasında öz əksini tapmış Milli Məclisin xarici siyasət sahəsindəki səlahiyyətlərinin analizinin həyata keçirilməsi.
- Azərbaycanda xarici siyasət mexanizminin strukturunun tədqiqi.
- Parlamentin çoxtərəfli diplomatiyasını beynəlxalq parlament təşkilatları çərçivəsində qiymətləndirmək.

- Azərbaycan Parlamentinin dünyanın bir çox ölkələri ilə ikitərəfli əməkdaşlığının mexanizmlərinin və formasının qiymətləndirilməsi.
- AR Milli Məclisinin beynəlxalq qurumlarla və təşkilatlarla əlaqələrinin öyrənilməsi;
- AR Milli Məclisinin Azərbaycan xalqının və dövlətinin mənafeyini qorumaq üçün gördüyü tədbirlərin nəzərdən keçirilməsi;
- AR parlamentinin Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində görülən işlərə dəstəyinin obyektiv dəyərləndirilməsi;
- Azərbaycan Respublikasının dünya dövlətləri ilə əlaqələrinin yaranması və inkişaf etdirilməsi istiqamətində ölkə parlamentinin həyata keçirdiyi tədbirlərin qiymətləndirilməsi;
- Azərbaycan Respublikasının beynəlxalq meydana enerji ehtiyatlarını ixrac edən ölkə kimi daxil olması istiqamətində ölkə parlamentinin fəaliyyət dərəcəsinin müəyyənləşdirilməsi.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işi müəyyən elmi əhəmiyyətə malikdir. Dissertasiyada xeyli fakt aşkar olunaraq xronoloji ardıcıllıqla ilk dəfə elmi dövriyyəyə daxil edilir. Azərbaycan Respublikası Milli Məclisinin 1993-2010-cu illərdə beynəlxalq parlament təşkilatları ilə əlaqələri vətən tarixi elmində ilk dəfə olaraq kompleks şəkildə araşdırılmışdır. Azərbaycan Respublikasının xarici siyasətində Milli Məclisin mövqeyinin və rolunun araşdırılması dissertasiyanın elmi yeniliyini müəyyənləşdirir. Tədqiqat prosesində Milli Məclisin cari arxivinin və Beynəlxalq münasibətlər şöbəsinin materiallarının elmi dövriyyəyə daxil edilməsi gələcək araşdırmalar üçün elmi-təcrübi əhəmiyyət kəsb edir.

Deyilənləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- Azərbaycan parlamentinin dövlətin xarici siyasətinə təsirinin ilk dəfə kompleks şəkildə öyrənilməsi təşəbbüsü.
- Azərbaycan Respublikasının Milli Məclisinin xarici siyasətdəki səlahiyyətlərinin meydana çıxarılması, xarici siyasi qərarların qəbul olunması zamanı qanunverici və icra hakimiyyətinin səlahiyyətləri ayrılaraq öyrənilir.
- Xarici siyasət mexanizmində parlamentin dövlətin işini tamamlaması yolları təyin olunur.
- Azərbaycan Respublikası Milli Məclisinin bir çox ölkələrin qanunverici orqanları ilə ikitərəfli əməkdaşlığı ilk dəfə araşdırılır.
- Azərbaycan Parlamentinin beynəlxalq təşkilatlarda iştirakının tədqiqində Milli Məclisin yeni sənədləri, beynəlxalq konfransların materialları, parlamentlərarası təşkilatların məruzələri istifadə olunur.

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Azərbaycan Respublikası Milli Məclisinin beynəlxalq əlaqələrinin son dövrə qədər sistemli şəkildə

öyrənilməsi dissertasiyanın önəmli cəhətlərindəndir. Dissertasiyanın elmi nəticələrindən, müddəalarəndan və elmi dövriyyəyə cəlb edilən materiallarından Azərbaycan Respublikasının xarici əlaqələrinə dair ümumiləşdirici əsərlərin yazılmasında istifadə edilə bilər. Dissertasiya materialları müasir beynəlxalq münasibətlərə dair xüsusi kursların tədrisi üçün də faydalı ola bilər. Bu tədqiqat işinin başlıca müddəaları beynəlxalq təşkilatların Azərbaycan Respublikası ilə əlaqələr tarixinin, Dağlıq Qarabağın işğaldan azad olunması istiqamətində Azərbaycan Respublikasının gördüyü tədbirlər prosesində, ölkədə insan hüquqlarının, demokratiyanın təmin olunması istiqamətində həyata keçirilən islahatlar gedişində də nəzərə alına bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya Bakı Dövlət Universiteti Tarix fakültəsinin Azərbaycan tarixi (humanitar fakültələr üzrə) kafedrasında yerinə yetirilmiş və iki dəfə müzakirə edilmişdir. Dissertasiyanın əsas müddəaları ilə bağlı müəllif tərəfindən beynəlxalq elmi konfransda məruzə edilmiş, sanballı jurnallarda, o cümlədən 2 məqalə xaricdə (RF və Ukraynada) dərc edilmişdir.

**Dissertasiyanın quruluşu**. Dissertasiya ixtisarlar, giriş, 3 fəsil, 8 yarımfəsil, nəticə və istifadə olunmuş mənbələr və ədəbiyyat siyahısından ibarətdir.

## II. DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "**Giriş**" hissəsində mövzunun aktuallığı və elmi əhəmiyyəti əsaslandırılmış, xronoloji çərçivəsi göstərilmiş, problemin öyrənilmə səviyyəsi araşdırılmış, mənbə bazası təhlil olunmuş, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, metodoloji əsası aydınlaşdırılmış, elmi yenilikləri, nəzəri və praktiki əhəmiyyəti göstərilmişdir.

Dissertasiyanın "**Azərbaycan Respublikası Milli Məclisinin beynəlxalq parlamentlərarası təşkilatlar çərçivəsində çoxcəhətli diplomatiyası**" adlanan I fəsli 2 yarımfəsildən ibarətdir. "Avropa İttifaqı Parlament Assambleyası ilə Milli Məclisin əlaqələrinin əsas istiqamətləri" adlanan 1-ci yarımfəsildə 27 dövləti birləşdirən bu dövlətlərüstü (supranational) və eyni zamanda dövlətlərarası iqtisadi və siyasi təşkilat kimi formalaşan İttifaqın təşəkkülü və formalaşması prosesinə diqqət yetirilir. Eyni zamanda təşkilatın yaranma tarixinə də yer ayrılır.

Birlik daxilində müxtəlif sahələr üzrə şirkətlər və birliklər, habelə Birliyi idarə edən dövlətüstü qurumlar yaradıldı.

Möhkəm iqtisadi, siyasi potensialı ilə dünya arenasına təsir edə bilən Avropa İttifaqı yenicə müstəqilliyini bərpa etmiş Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edirdi. Ölkəmiz öz iqtisadi əlaqələrini gücləndirmək, demokratik dəyərlərini daha da möhkəmləndirmək məqsədi ilə quruma üzv

olmağa, onunla əməkdaşlığa çalışır, xüsusi proqramlarla iqtisadi, sosial və mədəni əlaqələr yaradır.[1]

Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında münasibətlərin hüquqi əsası Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi ilə qoyuldu. Bu sənəd 1996-cı il aprelin 22-də Lüksemburq şəhərində ölkə Prezidenti Heydər Əliyev tərəfindən imzalandı.[2] Sənəd bütün dövlətlər tərəfindən ratifikasiya edildikdən sonra 1 iyul 1999-cu il tarixində qüvvəyə mindi.

Sənədə əsasən ikitərəfli münasibətlərin inkişafı məqsədilə Əməkdaşlıq Şurası, Əməkdaşlıq Komitəsi, Parlamentlərarası Əməkdaşlıq Komitəsi və s. strukturlar yaradıldı.

Azərbaycan Respublikasını Avropa Qonşuluq Siyasətinə (AQS) daxil etmək haqqında Aİ Şurasının 14 iyun 2004-cü il tarixli qərarı ikitərəfli əməkdaşlıqda irəliyə doğru mühüm addım kimi qiymətləndirilə bilər.[3]

Ölkəmizlə qurum arasında əməkdaşlığın əsas istiqamətlərindən biri kimi enerji sahəsini də göstərmək olar. Bu yolda atılan ən mühüm addım 2006-cı il noyabrın 7-də Azərbaycan Respublikası Prezidentinin Brüsselə səfəri zamanı imzalanan "Avropa İttifaqı ilə Azərbaycan Respublikası arasında enerji sahəsində strateji tərəfdaşlıq haqqında Anlaşma Memorandumu" oldu.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Avropa İttifaqı ilə münasibətləri TACIS, TRACECA, INOGATE, ECHO və s. proqramlar çərçivəsində inkişaf etdirilib.[4]

1998-ci il sentyabrın 8-də Bakıda Azərbaycan və Gürcüstan Prezidentlərinin təşəbbüsü və Aİ-nin TRACECA proqramının dəstəyi ilə "Tarixi İpək Yolunun bərpası" adlı Beynəlxalq Konfrans keçirildi. Tədbirdə əldə edilmiş ən mühüm nailiyyət "Avropa-Qafqaz-Asiya Dəhlizinin inkişafı üçün beynəlxalq nəqliyyat üzrə Əsas Çoxtərəfli Saziş" və onun Texniki Əlavələri oldu.[5]

Aİ ilə münasibətlərlə bağlı bir sıra yeni qurumlar yaradıldı.

Dissertasiyanın I fəslinin "Parlamentlərarası İttifaqla Milli Məclisin əməkdaşlıq sahələri" adlanan 2-ci yarımfəslində Milli Məclisin Aİ-nin Parlamentlərarası İttifaqı vasitəsilə müstəqil dövlətlərin parlamentlərinin

---

[1] Həsənov Ə. Müasir Beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. B., 2005, s. 325.

[2] Heydər Əliyev və Azərbaycan Parlamenti. B., 2003, s.248.

[3] Алиев Гейдар. Мы не можем допустить возникновения на территории Азербайджана второго армянского государства. Б., 2006, 317.

[4] Козик Л.П. Экономика и нефтегазовый комплекс Содружества Независимых Государств. М., 2007, s. 40.

[5] Yenə orada, s. 328.

qarşılıqlı əlaqələrinin yaradılmasına yol açıldı.

Milli Məclisin bu təşkilata üzv olması Azərbaycanın bir çox dünya ölkələrinin parlamentləri ilə siyasi, iqtisadi və sosial əlaqələrinin qurulmasına yardımçı ola bilərdi. Azərbaycan Respublikası Parlamentlərarası İttifaqa 1993-cü ilin aprelində üzv qəbul edildi.[1]

1996-cı il aprelin 15-20-də İstanbulda Parlamentlərarası İttifaqın 95-ci konfransı keçirildi.[2] Milli Məclis sədrinin müavini Arif Rəhimzadə konfransda çıxışında həll olunmamış münaqişələr, xüsusi ilə də Ermənistan və Azərbaycan arasındakı münaqişənin hələ də davam etdiyini iştirakçılara bildirdi.

Azərbaycan Parlamentlərarası İttifaqın müxtəlif mövzularda keçirdiyi konfranslarda da fəal iştirak edir.[3]

Milli Məclis son illər ərzində PA-nın plenar iclaslarında iştirak etməyib. Buna səbəb təşkilatın fəaliyyətindən gözlədiyimiz nəticənin alınmaması idi.

Dissertasiyanın I fəslinin "Avropa Şurası Parlament Assambleyası ilə Milli Məclisin qarşılıqlı əlaqələri" adlanan 3-cü yarımfəslində Vahid Avropa evində Azərbaycan Respublikasının yeri və rolu məsələlərinə aydınlıq gətirilir.

Sovet İttifaqının süqutundan sonra Azərbaycan da bu quruma üzv oldu.

Nazirlər Komitəsi və Parlament Assambleyası təşkilatın əsas orqanlarıdır. Qərargahı Strasburqda yerləşir. Rəsmi dilləri ingilis və fransız dilləridir.

Müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan üçün Avropa Şurası özünü beynəlxalq aləmdə tanıtmaq, ölkəmiz haqqında həqiqətləri geniş ictimaiyyətə çatdırmaq rolu oynaya bilərdi.

Bu məqsədlə 24 yanvar 1992-ci ildə Azərbaycan Respublikasının Parlamenti "xüsusi dəvət edilmiş qonaq" statusu almaq üçün Avropa Şurasına müraciət etmişdir. Ancaq bu dövrdə ölkəmizin müharibə şəraitində olaraq bu məsələyə az diqqət ayırması və qurumun Qafqaz regionuna qədər genişlənmək üçün fəaliyyət mexanizminin hazır olmadığı səbəbindən bu məsələ açıq saxlanılmışdır.[4]

1993-cü il aprelin 28-30-da Avropa Şurasının ekspertləri ölkəmizə səfər etdilər. Səfər zamanı Azərbaycandakı hüquqi şərait, Avropa Şurasının qaçqınlarımıza ayıracağı humanitar məsələlər müzakirə olundu. Görüşlərdə

---

[1] Inter-Parliamentary Union, Geneva. The Information officer Inter-Parliamentary Union.1992-1997, s. 23.

[2] "Бакинский рабочий" qəzeti, №66, 1999.

[3] Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar(1991-1999). B., 1999, s. 38.

[4] Avropa Şurası və Azərbaycan. B., 2000, s. 7.

qanunvericilik bazasının təkmilləşdirilməsi, ölkəmizin bir sıra beynəlxalq konvensiyalara qoşulması barədə bir sıra razılaşmalar əldə olundu.[1]

1994-cü il iyulun 4-dən 11-dək Strasburqda Avropa Şurasının qərargah mənzilində AŞPA-nın qeyri-üzv ölkələr üzrə komissiyasının iclasında nümayəndələrimiz Ermənistanın hərbi təcavüzü, 1 milyondan artıq qaçqın və məcburi köçkünlərimizin olması barədə geniş məruzə etdilər, Azərbaycan tərəfinin münaqişənin ATƏT çərçivəsində sülh yolu ilə həllində maraqlı olduğunu bildirdilər.[2]

Qarşılıqlı əlaqələrin inkişafı, ölkəmizdə gedən demokratik dəyişikliklər nəticəsində 1996-cı ildə Respublikamız "xüsusi dəvət edilmiş qonaq" statusunu aldı.[3]

1996-cı ilin iyulunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Avropa Şurası Baş katibinə dövlətimizin Avropa Şurasına tam hüquqlu üzv qəbul olunmaq və digər üzv dövlətlər kimi İnsan hüquqları və azadlıqları haqda Avropa konvensiyasına qoşulmaq arzusu ifadə olunan məktub göndərdi.[4] Sentyabrın 11-də AŞ Nazirlər Komitəsinin 573-cü iclasında Azərbaycanın Avropa Şurasına daxil olması, Azərbaycanda demokratiyaya keçid prosesinin sürətləndirilməsi məqsədilə Azərbaycan hakimiyyət dairələri ilə danışıqların intensivləşdirilməsi, əməkdaşlıq proqramları formasında yardımın edilməsini nəzərdə tutan 32 saylı qətnamə qəbul edildi. Bu qərarla ölkəmizin Avropaya inteqrasiya prosesi gücləndi.[5] Azərbaycan bir sıra konvensiyalara qoşuldu.

Ölkəmizin uzun sürən siyasi mübarizəsinin, ölkədə aparılan demokratik proseslərin nəticəsi olaraq 2000-ci il iyunun 26-28-də AŞPA-nın növbəti sessiyasında 126 nəfər deputatın iştirak etdiyi səsvermədə 120 nəfər lehinə, 1 nəfər əleyhinə, 5 nəfər isə bitərəf qalmaqla Azərbaycan Respublikasının Avropa Şurasının tam hüquqlu üzvlüyünə qəbul edilməsinə dair müsbət rəy verildi. Nəhayət, 2000-ci il noyabrın 7-9-da Avropa Şurası Nazirlər Komitəsinin 107-ci sessiyasında Azərbaycanı Avropa Şurasına üzv olmağa dəvət edən 14 saylı Qətnamə qəbul edildi.[6]

2001-ci il yanvarın 17-də Avropa Şurası Nazirlər Komitəsinin iclasında Azərbaycan Respublikasının Avropa Şurasına tam hüquqlu üzv qəbul

---

[1] Hüseynova H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində. B., 1998, s.37.
[2] Avropa Şurası və Azərbaycan. B., 2000, s. 27.
[3] Əbilov A. Avropa Şurası və Azərbaycan. B., 2001, s. 47.
[4] Avropa Şurası və Azərbaycan. Sülh, əmin-amanlıq və demokratiya naminə: Heydər Əliyev haqqında. B., 2001, s. 58.
[5] Rəcəbli H., İbayev V. Avropa Şurası. B., 1999, s. 93.
[6] İmaməliyeva Ü. Azərbaycanın Avropa Şurası ilə əlaqələri: siyasi əməkdaşlığın istiqamətləri. Monoqrafiya. B., 2007, s. 124.

edilməsinə dair qərar qəbul edildi.[1] Bundan sonra Azərbaycan Respublikası Milli Məclisi maneələrə baxmayaraq, AŞ və onun PA ilə müxtəlif sahələrdə çətin yaranan əlaqələri daha da genişləndirdi. AŞPA-nın komitələrinin fəaliyyətində də nümayəndə heyətimiz həmişə fəal iştirak edirdi.[2]

Ümumilikdə Avropa Şurası ilə Azərbaycan arasında münasibətlər inkişaf edən xətt üzrə qurulub. Xalqın maraqlarını əks etdirən ölkə siyasətində Milli Məclisin müsbət səyləri var.

Dissertasiyanın "**Azərbaycan Respublikasının Parlamenti postsovet məkanında dövlətin xarici siyasət kursunun təşəkkülü prosesində**" adlanan ikinci fəsli 2 yarımfəsildən ibarətdir. "Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ilə Milli Məclisin əlaqələrinin yaranması" adlı 1-ci yarımfəsildə Qara Dəniz ərazisinin əməkdaşlıq və inkişaf ərazisinə çevrilə biləcəyinin mümkün olması, region ölkələrinin, o cümlədən, Azərbaycan Respublikasının bu sahədə fəaliyyəti, nümayəndələri insanların, sərmayələrin və malların azad şəkildə hərəkət edə biləcəyi, əməkdaşlıq üçün təşəbbüs təkliflərinin tərsinə olaraq aşağıdan yuxarıya doğru hərəkət edəcəyi və beləliklə dövlətlərin belə bir əməkdaşlıq bölgəsi üçün hüquqi strukturun yaradılması imkanına sahib olacağı bir təşkilatın təsisi üçün müzakirələrə başlanıldı.

Azərbaycan Respublikası Qara Dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisinin yaradılmasında yaxından iştirak etdi. Türkiyə tərəfindən irəli sürülmüş Qara dəniz regionunda yerləşən ölkələrin iqtisadi, siyasi, elmi-texniki, mədəni və humanitar sahələrdə əməkdaşlığı ideyasının reallaşması üçün region ölkələrinin dövlət və hökumət başçıları İstanbulda bir araya gəldilər. 25 iyun 1992-ci ildə İstanbulda Albaniya, Ermənistan, Azərbaycan, Bolqarıstan, Gürcüstan, Yunanıstan, Moldova, Rumıniya, Rusiya, Türkiyə və Ukraynanın Dövlət və ya Hökumət Başçıları tərəfindən Qara Dəniz İqtisadi Əməkdaşlığı üzrə Zirvə Bəyannaməsinin (İstanbul Bəyannaməsi) imzalanması ilə yaradıldı. İstanbul Bəyannaməsi ilə bərabər 25 iyun 1992-ci il tarixində 11 ölkənin Dövlət və Hökumət Başçıları tərəfindən Bosfor Bəyanatı da imzalandı.[3]

İstanbul Bəyannaməsi Qara Dəniz əməkdaşlığının prinsiplərini, əsaslarını, istiqamətlərini və ilkin mexanizmlərini təsbit edir. Bosfor Bəyanatı isə İstanbul Bəyannaməsinin və Qara Dəniz Əməkdaşlığı təşəbbüsünün

---

[1] Ələsgərov M. Azərbaycan Parlamenti və Beynəlxalq Təşkilatlar. B., 2004, s. 13.

[2] Bax: Azərbaycan Respublikası Milli Məclisinin cari arxivi. Beynəlxalq münasibətlər şöbəsi AŞPA-nın payız sessiyası 4-9 oktyabr 2004, v. 8 və s.

[3] Karadeniz Ekonomik İşbirligi projesi ve üye ülkeler // Bilgi, 1993, nöm.7, Ankara,1993, s. 50-51.

vacibliyini ümumi cizgilərdə qeyd edir.

1993-cü il iyunun 15-də Qara Dəniz İqtisadi Əməkdaşlığı Parlament Məclisinin təsis iclası keçirildi. Məclisin işində Albaniya, Azərbaycan, Türkiyə, Rusiya, Gürcüstan, Ukrayna, Rumıniya, Moldova, Ermənistan, Yunanıstan nümayəndə heyətləri iştirak edirdilər.[1]

Növbəti illərdə Qara Dəniz İqtisadi Əməkdaşılğı Parlament Məclisinin iclaslarında, habelə təşkilatın mədəniyyət, təhsil və sosial işlər, iqtisadiyyat, ticarət, texnologiya və ətraf mühitin mühafizəsi, hüquqi və siyasi işlər komitələrinin iclasları keçirildi. Keçirilən iclaslarda Milli Məclisin nümayəndə heyəti yaxından iştirak edib.

Respublikamız ilk dəfə olaraq 2003-cü ilin may ayında 6 aylıq QDİƏT-də sədrliyi öz üzərinə götürmüşdür.

Sədrliyinin yekun tədbiri 31 oktyabr 2003-cü il tarixində Bakıda keçirilən QDİƏT-in Xarici İşlər Nazirləri Şurasının 9-cu İclası oldu.[2] 2003-cü ilin oktyabrında QDİƏT-də sədrlik müddətinin bitməsinə baxmayaraq üzv dövlətlərin xahişi ilə Azərbaycan Respublikası konstruktiv mövqe nümayiş etdirərək, ikinci dəfə sədrliyi öz üzərinə götürdü (2003-cü il oktyabr – 2004-cü il aprel).

2006-cı ilin noyabrında QİƏT PM plenar iclası Bakıda keçirildi. Tədbirə Milli Məclisin Sədri Oqtay Əsədov sədrlik edirdi. O, regionda əldə olunan uğur və nailiyyətləri qeyd etdi. Regionda hələ də həll edilməmiş münaqişələrin mövcudluğunu xüsusi vurğulayaraq, Dağlıq Qaradağ münaqişəsinin tezliklə beynəlxalq hüquq normalarında həll olunacağına ümid olduğunu söylədi.[3]

Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı ilə daha geniş coğrafi ərazidə yerləşən ölkələr arasında iqtisadi əməkdaşlıq getdikcə daha da artır. Müvafiq regional parlament və hökumət təşkilatları ilə Azərbaycanın maraqlarına cavab verən əməkdaşlığın inkişaf etdirilməsi ölkəmizin ümumavropa inteqrasiya prosesinə öz töhfəsini verəcəkdir.

Dissertasiyanın II fəslinin "Müstəqil Dövlətlər Birliyi Parlament Məclisi ilə Milli Məclis arasında münasibətlər" adlanan 2-ci yarımfəslində 1991-ci il dekabrın 8-də Minskdə Belarus, Rusiya və Ukraynanın iştirakı ilə yaradılmış (bununla da SSRİ-nin süqutunu təsbit etmiş) MDB-də iştirakı işıqlandırılır.

---

[1] Karadeniz Ekonomik İşbirligi projesi ve üye ülkeler // Bilgi, 1993, nöm.7, Ankara,1993, s. 65.

[2] Azərbaycan Respublikası Milli Məclisinin cari arxivi. Beynəlxalq münasibətlər şöbəsi. QDİƏT PM XXII plenar iclasının materialları. 2003, v. 15 və s.

[3] Azərbaycan Respublikası Milli Məclisinin cari arxivi. Beynəlxalq münasibətlər şöbəsi. QDİƏT PM-in işinə dair sənədlər. 2006, v. 38.

Həmin il dekabrın 21-də Almatıda Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Belarus, Ermənistan, Moldova, Rusiya, Türkmənistan, Özbəkistan və Ukrayna respublikalarının rəhbərləri görüş keçirdilər. Tədbirdə MDB-ni yaratmaq haqqında Almatı bəyannaməsi imzalandı.

1992-ci ilin martında MDB iştirakçısı olan dövlətlərin Parlamentlərarası Məclisi yaradıldı. Azərbaycan Parlamenti bu sənədi 1993-cü il sentyabrın 20-də ratifikasiya etdi və quruma tam hüquqlu üzv oldu.[1]

Hazırda MDB PM-də hüquq məsələləri, iqtisadiyyat və maliyyə, ətraf mühitin mühafizəsi, müdafiə və təhlükəsizlik, xarici siyasət, mədəniyyət, elm, təhsil və s. komissiyaları fəaliyyət göstərir.[2]

1994-cü il mayın 4-5-də Bişkekdə MDB PM-nin növbəti iclası keçirildi. İclasda Ermənistanın Azərbaycana təcavüzü və yaranmış problemlər əsas müzakirə mövzusu oldu.[3] Tədbirdə uzun müzakirələrdən sonra Bişkek protokolu imzalandı. Protokolda Dağlıq Qarabağda silahlı münaqişənin dayandırılması, BMT və ATƏT-in qərar və qətnamələrinin yerinə yetirilməsi, zəbt olunmuş torpaqlardan ordunun çıxarılması, qaçqınların daimi yaşayış yerlərinə qaytarılması və s. məsələləri MDB ölkələrinin parlamentində müzakirəsinə təklif etmək öz əksini tapmışdır.[4]

2003-cü ilin sentyabrında Moskvada "Qafqaz dördlüyü" ölkələrinin parlament sədrlərinin iclası keçirildi. Tədbirdə Milli Məclisin sədri həmçinin Gürcüstan, Ermənistan və Rusiya parlamentlərinin sədrləri iştirak edirdi. İclasın gedişində Qafqaz regionunun problemləri müzakirə olundu. Gələcək əlaqələrin inkişaf perspektivləri, mövcud problemlər haqqında söhbət açıldı.[5]

Aparılan araşdırmalardan məlum olur ki, Müstəqil Dövlətlər Birliyi Parlament Assambleyası ilə Azərbaycan Respublikasının Milli Məclisi əlaqələrini əsasən qanunvericilik hüququnun öyrənilməsi, keçmiş sovet ölkələri ilə iqtisadi, siyasi əlaqələrin qurulması və s. istiqamətlərdə aparır. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı MDB qurumlarından gözlənilən ümidlər özünü doğrultmadı.

Dissertasiyanın 3-cü fəsli "**Azərbaycan Respublikası Milli Məclisinin xarici siyasətin inkişafı istiqamətində beynəlxalq təşkilatlarla ikitərəfli əlaqələri**" adlanır və 3 yarımfəsildən ibarətdir.

---

[1] "Azərbaycan" qəzeti, №183, 1993.
[2] "Azərbaycan" qəzeti, №183, 1993.
[3] "Azərbaycan" qəzeti, №85, 1994.
[4] "Azərbaycan" qəzeti, №88, 1994.
[5] Azərbaycan Respublikası Milli Məclisinin cari arxivi. Beynəlxalq münasibətlər şöbəsi. MDB ölkələri Parlamentlərarası Assambleyası şurasının və iclasının materialları. XXII Plenar iclas. 2003, v. 136.

Bu fəslin 1-ci yarımfəsli "ATƏT-lə Milli Məclis arasında ikitərəfli əlaqələrin yaranma tarixi" adlanır.

Müstəqillik əldə etdikdən sonra Azərbaycan milli mənafelərə söykənərək ikitərəfli siyasi, diplomatik münasibətlərlə yanaşı, universal və regional beynəlxalq təşkilatlarla da əməkdaşlığa, onların təsisatlarında, orqanlarında fəaliyyət göstərməyə başladı. Ölkəmizin bu qurumlarda iştirakının əsas məqsədi ərazi bütövlüyünü təmin etmək, iqtisadi, siyasi əməkdaşlığa nail olmaqdır.

Azərbaycan ATƏM-in (1 yanvar 1995-ci ildən ATƏT) üzvlüyünə 1992-ci ilin 30 yanvarında qəbul olunmuşdur. ATƏM Azərbaycanın daxil olduğu ilk Avropa təşkilatı idi.

İlk dövrlərdə ATƏM-in münaqişə ilə bağlı fəaliyyəti müşahidəçilər göndərməkdən, siyasi bəyanatlar verməkdən ibarət idi. Sonrakı illərdə qurumun mövqeyində ölkəmizin mənafeyinə uyğun dəyişiklik Respublika Prezidenti Heydər Əliyevin siyasi müdrikliyinin, bacarığının nəticəsi idi.

Respublikamızla ATƏT-in əsas fəaliyyət istiqaməti Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması sahəsindədir. Bunu ulu öndər Heydər Əliyev öz çıxışlarında da qeyd edərək demişdir: "Biz ATƏT-lə bu sahədə (Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi) sıx əməkdaşlıq edirik. Bu, bizi ATƏT-in əməkdaşlıq etdiyi başqa ölkələrdən fərqləndirən çox mühüm amildir".[1]

1992-ci ildə bir sıra dövlətlərin iştirakı ilə Belarusun paytaxtı Minskdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll edilməsi ilə bağlı konfrans keçirilməli idi. Lakin Ermənistanın Şuşa və Laçını işğalı bu planı pozdu və sülh missiyasını öz üzərinə götürmüş Minsk Konfransının keçirilməsi pozuldu. Dünya birliyi Ermənistanın bu təcavüzkarlığına göz yumdu və onun cilovlanması üçün heç bir əməli tədbir görmədi.

1993-cü ildə BMT qətnamələrinin icrası üçün konfransın çağırılması nəzərdə tutuldu. Bunun üçün "Təxirəsalınmaz tədbirlər Cədvəli" də tərtib edilmişdi.[2] Azərbaycanda yaranmış daxili siyasi böhran Ermənistanın işğalçı planlarının daha da genişlənməsinə meydan açdı. Payızda isə yeni cədvəl hazırlandı. Amma Rusiyanın və Avropa dövlətlərinin mövqeyi ucbatından Minsk Konfransını çağırmaq mümkün olmadı.

Budapeşt Sammiti Azərbaycan nümayəndə heyətinin fəal iştirakı ilə 1994-cü il dekabrın 5-6-da keçirildi. Burada ilk dəfə olaraq ATƏT çərçivəsində Avropa təhlükəsizlik tədbirlərində iştirak edə biləcək

---

[1] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 6-cı cild. B., 1998, s. 423.

[2] Həsənov Ə. Müasir Beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. B., 2005, s. 365.

sülhməramlı qüvvələrinin yaradılması və münaqişəli ərazilərə göndərilməsi qərara alındı. İlk sülhməramlı çoxmillətli hərbi hissənin Dağlıq Qarabağ bölgəsinə göndərilməsi haqqında razılıq eldə edildi.

1996-cı il 2-3 dekabrda ATƏT-in Lissabon sammiti keçirildi. Burada Avropada XXI əsrdə ümumi və hərtərəfli təhlükəsizlik modeli adlı Bəyannamə qəbul edildi. Lissabon Zirvə görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair ATƏT-in iştirakçı dövlətləri tərəfindən (Ermənistandan başqa) aşağıdakı prinsiplərə razılıq verildi: 1. Ermənistan Respublikasının və Azərbaycan Respublikasının ərazi bütövlüyü; 2. Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək özünüidarəetmə statusun verilməsi; 3. Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təminatı.[1]

Ümumilikdə ATƏT bir təşkilat olaraq Azərbaycanın Avropaya inteqrasiyası prosesində önəmli rol oynayır. Ümumavropa təşkilatı olaraq, öz fəaliyyətini qitədə mövcud olan təhlükəsizlik məsələlərinin həll edilməsinə və bu istiqamətdə müvafiq dövlətlərarası əməkdaşlığın güclənməsinə yönəltmişdir.

Dissertasiyanın III fəslinin "NATO-nun Parlament Assambleyası və Milli Məclisin əsas əməkdaşlıq istiqamətləri" adlanan 2-ci yarımfəslində həmin təşkilatın yaranması tarixindən və fəaliyyətindən bəhs olunur, Azərbaycanla əlaqələri işıqlandırılır.

1949-cu ildə yaradılan bu təşkilatın əsas rolu üzv dövlətlərin müstəqillik və Təhlükəsizliyini siyasi və hərbi vasitələrlə qorumaqdan ibarətdir.

NATO – hökumətlərarası təşkilatdır. NATO BMT-nin Nizamnaməsinin prinsiplərinə uyğun olaraq siyasi və hərbi yollarla bütün üzvlərinin azadlığını və təhlükəsizliyini müdafiə edir.[2]

Ölkəmiz balanslı xarici siyasət həyata keçirir və bütün dövlətlərlə normal münasibətlər qurmağa maraqlıdır. Ermənistan istisna olmaqla, Azərbaycan bütün dövlətlərlə normal münasibətlərə malikdir. Azərbaycanın xarici siyasətinin həyata keçirilməsində, xarici ölkələrlə əlaqələrin inkişaf etdirilməsində Milli Məclisin də özünəməxsus rolu var.

Müstəqillik əldə etdikdən sonra Milli Məclis NATO Parlament Assambleyası ilə əlaqələr qurmağa çalışdı. Bu münasibətlərin inkişafı ölkəmizlə təşkilat arasında daha sıx əlaqələrin yaranmasına, inkişaf etməsinə xidmət edir.

Azərbaycan-NATO ilk təması 1992-ci ilin martında Azərbaycanın Mərkəzi və Şərqi Avropanın və keçmiş Sovet İttifaqının 37 dövləti ilə

---

[1] Azərbaycan Respublikası Milli Məclisinin cari arxivi. Beynəlxalq münasibətlər şöbəsi. ATƏT Parlament Assambleyasının sənədləri 1992-1995, s. 132.

[2] Azərbaycan-NATO. 15 illik tərəfdaşlıq. B., 2009, s. 52.

birlikdə yeni yaradılmış məşvərətçi foruma – Şimali Atlantika Əməkdaşlıq Şurasına (ŞAƏŞ) (sonralar, 1997-ci ildə Avroatlantik Tərəfdaşlıq Şurasına (AATŞ) çevrilib) qoşulması ilə başlayıb.[1]

Azərbaycan nümayəndə heyəti ilk dəfə olaraq 1992-ci ilin oktyabrında Türkiyədə NATO üzvü olan ölkələrin seminarında iştirak edib.[2]

Ölkəmiz ilə NATO arasında məzmunlu tərəfdaşlığın əsası Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 4 may 1994-cü il tarixində Sülh Naminə Tərəfdaşlıq (SNT) Çərçivə Sənədi imzalaması ilə qoyuldu. Heydər Əliyev öz çıxışında bu tarixi hadisəni belə qiymətləndirirdi: "Biz NATO ilə əməkdaşlığa böyük ümid bəsləyirik. Regionda sabitliyin təmin olunmasında, müharibənin dayandırılmasında, Azərbaycan və Ermənistan arasında sülh və mehriban qonşuluq münasibətlərinin yaranması baxımından NATO ilə əməkdaşlığı vacib hesab edirik".[3]

Ölkəmiz 1997-ci ilin iyulunda NATO-nun Avroatlantika Əməkdaşlıq Şurasına da qoşuldu. Şimali Atlantika Əməkdaşlıq Şurasından fərqli olaraq bu struktur SNT çərçivəsində məsləhətləşmələr və müzakirələrdən praktiki addımlara keçməyi nəzərdə tutur.[4]

Azərbaycanın NATO ilə tərəfdaşlığı onun Avroatlantik strukturlara inteqrasiya məqsədinə xidmət edir. Azərbaycan-NATO tərəfdaşlığında əsas istiqamətlər siyasi dialoq, sülhü dəstəkləmə əməliyyatlarında iştirak və əsas vurğusu müdafiə məsələlərinə yönələn geniş spektrli məsələlər üzrə praktiki əməkdaşlıqdan ibarətdir.[5]

NATO Parlament Assambleyasının 2002-ci il noyabrın 15-19-da İstanbulda keçirilən 48-ci illik sessiyası keçirildi. Noyabrın 18-də qurumun Daimi Komitəsinin iclasında Azərbaycan Respublikasına bu təşkilatda assosiativ üzv statusunun verilməsi barədə qərar qəbul edildi. Bu məsələ NATO Parlament Assambleyasının noyabrın 19-da keçirilən plenar iclasında rəsmən bəyan edildi.

Azərbaycan Respublikasının nümayəndəliyi digər tədbirlərdə də fəal iştirak edir.

---

[1] Azərbaycan-NATO. 15 illik tərəfdaşlıq. B., 2009, s. 54.

[2] Sülh və təhlükəsizlik naminə: Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin NATO-nun 50 illik yubileyi ilə əlaqədar Amerika Birləşmiş Ştatlarına səfəri, 22-27 aprel 1999-cu il. B., 2000, 87.

[3] Milli Məclis və NATO Parlament Assambleyası // http://eu.meclis.gov.az/?/az/content/287

[4] Sülh və təhlükəsizlik naminə: Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin NATO-nun 50 illik yubileyi ilə əlaqədar Amerika Birləşmiş Ştatlarına səfəri, 22-27 aprel 1999-cu il. B., 2000, s. 88.

[5] Azərbaycan-NATO: tərəfdaşlıqdan başlanan yol (1994-2009). B., 2009, s. 247.

Avroatlantika məkanının bir hissəsini təşkil edən Azərbaycan Respublikasının siyasi, iqtisadi və təhlükəsizlik durumu, eləcə də qonşu Ermənistanın təcavüzü nəticəsində yaranmış münaqişə ilə bağlı həqiqətlərin NATO PA-nın müvafiq qurumları vasitəsilə Alyans ölkələrinin parlamentarlarının diqqətinə çatdırılmasında bu təşkilatın oynadığı rol misilsizdir.

Dissertasiyanın III fəslinin 3-cü yarımfəslində "İslam Konfransı Təşkilatı ilə Milli Məclisin əlaqələri" məsələləri araşdırılır. Əsərdə İKT-nın yaranması tarixindən də bəhs edilir.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra 1991-ci ildən İslam Konfransı Təşkilatı ilə əməkdaşlıq edir.[1] Sovet İttifaqı dağıldıqdan sonra ilk olaraq Azərbaycan İslam Konfransı Təşkilatına üzv olmaq məqsədi ilə müraciət etmiş və dekabrda üzv qəbul edilmişdir.

Ulu öndər Heydər Əliyev ölkə rəhbərliyinə gələndən sonra, quruma layiqincə diqqət yetirildi. 1994-cü ildən etibarən ölkəmizin Səudiyyə Ərəbistanı Krallığındakı səfirinə İKT Baş katibliyində ölkəmizin Daimi nümayəndəsi funksiyasını daşımaq həvalə edildikdən sonra, Səfirlik vasitəsilə İKT Baş katibliyi və onun müxtəlif qurumları ilə mütəmadi səmərəli iş aparmağa başlanıldı.

Azərbaycan Prezidenti Heydər Əliyevin 1994-cü ilin iyulunda Kəbəyə Ümrə ziyarəti, oradakı məhsuldar görüşləri müsəlman aləminin ölkəmizə olan marağını artırdı.[2]

1994-cü ildən etibarən İKT-nin BMT ilə əməkdaşlığı üzrə problemlər siyahısına Ermənistan-Azərbaycan münaqişəsi məsələsinin salınmasına nail olundu.

1999-cu ildə İKT Xarici işlər nazirlərinin konfransında dövlətimizin mövqeyini müdafiə edən üç qətnamə qəbul edildi: "Ermənistanın Azərbaycana qarşı təcavüzü haqqında" (17/27-P), "Azərbaycana iqtisadi yardım göstərilməsi haqqında" (20/27-E), "Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərində islam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında" (25/27-C).[3]

Qurumla ölkəmiz çoxşaxəli, qarşılıqlı maraq əsasında əməkdaşlıq əlaqələrinin inkişafına üstünlük verir. Buna nümunə olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci ilin dekabrında İKT-nin Məkkədə keçirilmiş 3-cü fövqəladə Zirvə görüşündə iştirakı, onun

---

[1] Гулузаде В. Среди врагов и друзей. Б., 2002, s. 48.

[2] Аббасбейли А. Гейдар Алиев и мировая политика. Б., 1997, s. 95.

[3] Алиев Гейдар. Мы не можем допустить возникновения на территории Азербайджана второго армянского государства. Б., 2006, s. 293.

təşəbbüsü ilə 2006-cı ilin 19-21 iyun tarixlərində Bakıda İKT Xarici İşlər Nazirlərinin növbəti 33-cü Konfransının keçirilməsi, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2008-ci il 10-11 iyun tarixlərində Bakıda "Mədəniyyətlərarası Dialoqda Qadınların rolunun genişləndirilməsi" mövzusunda beynəlxalq forum, İKT Turizm nazirlərinin Bakı Konfransı, digər konfrans və tədbirləri göstərmək olar. Bütün bu addımlar əlaqələrin inkişafına yönəlmiş siyasətin tərkib hissəsi kimi dəyərləndirilə bilər.

Dissertasiyanın "**Nəticə**" hissəsində aparılan elmi araşdırmalara, əldə edilmiş elmi nəticələrə yekun vurulmuşdur.

**Dissertasiyanın əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı məqalələrində öz əksini tapmışdır:**


1. Azərbaycan Respublikasının Avropa Şurasına qəbulu // Tarix və onun problemləri, 2012. №1, s.120-126.
2. Azərbaycan Respublikasının ATƏT-lə əməkdaşlığının əsas istiqaməti və tarixi // Tarix və onun problemləri, 2012. №4 s. 122-130.
3. Azərbaycan Respublikası Milli Məclisinin Qara dəniz İqtisadi Əməkdaşlıq təşkilatı Parlament Məclisi ilə əlaqələri tarixi // Bakı Dövlət Universitetinin xəbərləri. 2012. №4, s. 166-173.
4. Azərbaycan Respublikası Milli Məclisinin beynəlxalq parlament təşkilatları ilə əlaqələrinin yaranma tarixi // Azərbaycan Dövlət Pedaqoji Universitetinin xəbərləri. 2013. №III s. 196-201.
5. Сотрудничество Милли Меджлиса Азербайджанской Республики с ОБСЕ в области разрешения Карабахского конфликта // Этносоциум и межнациональная культура (**Москва – РФ**). 2012. №6, с. 85-97.
6. Милли Меджлис Азербайджанской Республики и международные парламентские организации. Русскоязычие и би(поли)лингвизм в межкультурной коммуникации XXI века: когнитивно-концептуальные аспекты // Материалы V Международной научно-методической конференции. 11-13 апреля 2012 года (**Пятигорск – РФ**). с.78-84.
7. Вступление парламентской делегации Азербайджанской Республики под руководством Ильхама Алиева в Парламентской Ассамблее Совета Европы и последующее активное сотрудничество // Науковій вісник інноваційних технологій №2(5) 2013 (**Кіровоград – Украіна**), с.32-42.

*Гаджиева Т.Э.*

# ДЕЯТЕЛЬНОСТЬ МИЛЛИ МЕДЖЛИСА В ПРОВЕДЕНИИ В ЖИЗНЬ ВНЕШНЕЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

(1993-2008)

## РЕЗЮМЕ

Представленная диссертация состоит из введения, 3-х глав, 8-и разделов, заключения и списка использованных источников и литературы.

Тема диссертации до настоящего времени не была объектом специального научного исследования в отечественной историографии и является первой попыткой осуществления подобной цели.

Первая глава диссертационной работы называется «Многосторонняя дипломатия Милли Меджлиса Азербайджанской Республики в рамках международных межпарламентских организаций».

В первом разделе этой главы под названием «Основные направления сотрудничества Милли Меджлиса с ЕС и Парламентской Ассамблеей» рассматриваются деятельность азербайджанских парламентариев в установлении взаимных деловых связей со структурами СЕ и его Парламентской Ассамблеей.

Во втором разделе данной главы исследуются вопросы сотрудничества Милли Меджлиса с Межпарламентским Союзом. В следующем разделе внимание уделяется на исследование вопроса «Взаимных связей Парламентской Ассамблеи Совета Европы с Милли Меджлисом».

Вторая глава диссертации называется «Парламент Азербайджанской Республики в процессе становления внешнего курса Азербайджанской Республики в постсоветском пространстве».

В этой главе рассматриваются вопросы об установлении связей между Организацией Черноморского Экономического Сотрудничества и Милли Меджлисом, а также Отношения между Парламентским Собранием СНГ и Милли Меджлисом.

Третья глава диссертации называется «Двусторонние связи Милли Меджлиса Азербайджанской Республики с международными организациями в деле развития внешней политики», где анализируются история становления отношений между ОБСЕ и Милли Меджлисом, основные направления сотрудничества Парламентской Ассамблеи НАТО с Милли Меджлисом, а также связи Организации Исламская Конференция с Милли Меджлисом.

В заключении диссертации сформулированы основные обобщения и выводы вытекающие из проведенного исследования.

*Hajiyeva T.E.*

**Activity of Milli Mejlis in enforcing foreign policy of the Republic of Azerbaijan (1993-2008)**

**SUMMARY**

The presented thesis consists of an introduction, 3 chapters, and sections 8, conclusion and list of references and literature.

Dissertation topic has not yet been the object of a special scientific research in the national historiography and the first attempt to implement such a purpose.

The first chapter of the thesis called "Multilateral diplomacy Milli Majlis of the Azerbaijan Republic in the framework of international parliamentary organizations".

In the first section of this chapter entitled "Guidelines for cooperation with the EU, the Milli Mejlis and the Parliamentary Assembly" considers the activity of Azerbaijani parliamentarians to establish mutual business relations with the structures of the Council of Europe and its Parliamentary Assembly.

In the second section of this chapter examines the issues of cooperation of the commission with the Inter-Parliamentary Union. The next section focuses on the study on the issue of "Mutual Relations of the Parliamentary Assembly of the Council of Europe to the Milli Majlis".

The second chapter is called "The Parliament of the Republic of Azerbaijan in the process of formation of the external course of the Azerbaijan Republic in the post-Soviet space".

This chapter deals with the establishment of ties between the Black Sea Economic Cooperation and the Milli Majlis, as well as the relationship between the Parliamentary Assembly of the CIS and the Milli Majlis.

The third chapter of the dissertation is called "Bilateral relations of the Milli Majlis of the Azerbaijan Republic with international organizations in the development of foreign policy," which analyzes the history of the formation of relations between the OSCE and the Milli Majlis, the main areas of cooperation with the NATO Parliamentary Assembly of the Milli Majlis, as well as communication with the Organization of Islamic Conference Milli Majlis.

In conclusion, the thesis formulated the basic generalizations and conclusions resulting from the study.

Əla növ kağız, formatı 60x84 - $^{1}/_{16}$
Tirajı 100 nüsxə.
BDU-nun mətbəəsi

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

*На правах рукописи*

**ГАДЖИЕВА ТАМИЛЛА ЭЛЬХАН гызы**

# ДЕЯТЕЛЬНОСТЬ МИЛЛИ МЕДЖЛИСА В ПРОВЕДЕНИИ В ЖИЗНЬ ВНЕШНЕЙ ПОЛИТИКИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
(1993-2008)

Специальность: 5503.02 – “Отечественная история”

# А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по истории

Баку – 2014